# ÜZEYİR HACIBƏYLİ

## *Uşaqlara hədiyyə*

***Səs və fortepiano üçün mahnılar***



**Üzeyir Hacıbəyli**
**Uzeyir Hajibeyli**

# UŞAQLARA HƏDİYYƏ
# A GIFT FOR CHILDREN

*Səs və fortepiano üçün mahnılar*
*Songs for voice and piano*

AZƏRNƏŞR

Bakı–2025

Redaktor:
**Sərdar Fərəcov**
*Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru,*
*Xalq artisti*

Tərtibatçı və kompüter not qrafikası:
**Vəfa Bağırzadə**
*Üzeyir Hacıbəylinin ev-muzeyinin ekspozisiya və kütləvi işlər şöbəsinin müdiri,*
*Azərbaycan Bəstəkarlar İttifaqının üzvü*

İngilis dilinə tərcümə edən:
**Tamam Bayatlı**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Məsul redaktor:
**Fərid Hüseyn**
*Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri, şair*

Üzeyir Hacıbəyli. "**Uşaqlara hədiyyə**" *(səs və fortepiano üçün mahnılar).*
Bakı, Azərnəşr. 2025. 28 səh.

ISBN 978 9952 594 07 2

© Azərnəşr, 2025

---

Editor:
**Sardar Farajov**
*Director of Uzeyir Hajibeyli's House-Museum,*
*People's Artist*

Designer and Computer Notation Graphics:
**Vafa Baghirzade**
*head of the exposition and public affairs department at Uzeyir Hajibeyli's House-Museum in Baku,*
*member of the Azerbaijan Composers' Union*

Translations by
**Tamam Bayatly**
*PhD in Philology, Associate Professor*

Managing Editor:
**Farid Huseyn**
*Chairman of the Youth Council of the Azerbaijan Writers' Union, poet*

Uzeyir Hajibeyli. "**A Gift for Children**" *(songs for voice and piano).*
Baku, Azernashr. 2025. 28 pp.

ISBN 978 9952 594 07 2

© Azernashr, 2025



Azərbaycanın uzunmüddətli etibarlı tərəfdaşı və iri enerji layihələrinin operatoru olan bp şirkəti ölkənin həyatının müxtəlif sahələrinə – təhsil, yerli icmaların inkişafı, ətraf mühitin qorunması, xalqın zəngin mədəni irsi və tarixinin tədqiqi və təbliği, milli idmanın inkişafına da öz töhfəsini verir.

Bu kitab Azərbaycan xalqının böyük oğlu – Azərbaycanın mədəniyyət tarixinin zirvəsində duran nəhəng şəxsiyyətlərdən biri, xalqın milli klassik musiqisinin və professional bəstəkarlıq məktəbinin banisi, ilk milli operanın müəllifi, görkəmli maarifçi, dramaturq və publisist Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyinə bp şirkətinin kiçik töhfəsidir.

Kitab satış üçün nəzərdə tutulmayıb.

Burada istifadə olunan fikirlər müəlliflərə məxsusdur və bp-nin rəsmi mövqeyini əks etdirmir.

Bütün müəllif hüquqları nəşriyyata məxsusdur.

As a long-term reliable partner of Azerbaijan and the operator of its major energy projects, bp also contributes to various areas of the country's life – education, development of local communities, environmental protection, research and promotion of the nation's rich cultural heritage and history and the advancement of national sports.

This book is bp's modest contribution to the 140th anniversary of the birth of Uzeyir Hajibeyli – a great son of the Azerbaijani people, one of the towering figures in the history of Azerbaijani culture, founder of the nation's classical music and professional school of composition, author of the first national opera, prominent educator, playwright and publicist.

The book is not intended for sale.

The views expressed herein are those of the authors and do not reflect bp's official position.

All copyrights belong to the publisher.

# ÖN SÖZ

Dahi bəstəkar Üzeyir Hacıbəyli yaratdığı möhtəşəm operalar, operettalar, kantatalar, kamera və orkestr əsərləri ilə yanaşı, uşaqları da unutmamış, onların mənəvi aləmini zənginləşdirən çox gözəl, oynaq və mənalı mahnılar bəstələmişdir. İstər Hadrutda, istərsə də Bakıda "Səadət" məktəbində çalışdığı illərdə Üzeyir bəy uşaqları xüsusi sevgi, diqqət və qayğı ilə əhatə etmiş, onların təlim və tərbiyəsində musiqinin əhəmiyyətini hər zaman ön planda tutmuşdur.

Üzeyir Hacıbəylinin uşaq mahnılarının mövzuları çoxşaxəlidir. Bu mahnılarda təbiət, insan əməyi, ailə-məişət səhnələri, bayramlar və digər mövzular əksini tapmışdır. Bu gözəl mahnıların sözləri görkəmli Azərbaycan şairləri Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Abbas Səhhət, Mirmehdi Seyidzadə və başqalarına aiddir. Hətta ədəbiyyatşünas Firidun bəy Köçərli 1910-cu ildə Abdulla Şaiqin yazdığı "Gözəl bahar" pyesi əsasında yeni bir operetta yazmaq təşəbbüsü ilə Üzeyir bəyə müraciət etmişdir.

Uşaqlarla bağlı belə zəngin və ünvanlı materiallardan bəzi seçmələri dahi bəstəkarın 140 illik yubileyi münasibətilə bir daha musiqi ictimaiyyətinin diqqətinə təqdim etmək istədik. Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyinin ekspozisiya və kütləvi işlər şöbəsinin müdiri, gənc bəstəkar Vəfa Bağırzadənin tərtib etdiyi, 8 mahnıdan ibarət bu məcmuəni yubiley ərəfəsində muzeyin kiçik bir hədiyyəsi kimi dəyərləndirməyi arzulayırıq. Kitabın nəşrinə dəstək göstərdiyinə görə bp şirkətinə Azərbaycan musiqisevərləri adından təşəkkür edirik.

Bir daha qeyd etmək istərdik ki, çoxlu sayda iri həcmli əsərlər yaradan Üzeyir bəyin uşaqlar üçün yazdığı əsərlər də hər cür diqqətə və yüksək qiymətə layiqdir. Belə mahnılarla uşaqların hər görüşü onların saf və gözəl dünyasına yeni rənglər, gözəlliklər qatacaq və onlar bu gözəlliyi, ülviliyi bütün ömürləri boyu sevə-sevə yaşadacaqlar.

**Sərdar Fərəcov**
*Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru,*
*Xalq artisti*



# FOREWORD

The great composer Uzeyir Hajibeyli, in addition to creating magnificent operas, operettas, cantatas, chamber and orchestral works, never forgot children – he composed beautiful, lively and meaningful songs that enriched their spiritual world. Whether in Hadrut or during his years of teaching at the 'Saadat' school in Baku, Uzeyir bey embraced children with special love, attention and care, always emphasizing the importance of music in their education and upbringing.

The themes of Uzeyir Hajibeyli's children's songs are diverse, reflecting nature, human labour, family and everyday life, holidays and other topics. The lyrics of these beautiful songs were written by prominent Azerbaijani poets such as Mirza Alakbar Sabir, Abdulla Shaig, Abbas Sahhat, Mirmehdi Seyidzade and others. Notably, in 1910, literary scholar Firidun bey Kocharli proposed to Uzeyir Hajibeyli the idea of composing a new operetta based on Abdulla Shaig's play *The Splendid Spring*.

On the occasion of the great composer's 140th anniversary, we decided to present a selection of these rich and child-focused materials once again to the attention of the musical community. We hope that this collection of eight songs, compiled by young composer Vafa Baghirzade – head of the exposition and public affairs department at Uzeyir Hajibeyli's House-Museum in Baku – will be received as a small gift from the museum in honour of this remarkable anniversary. On behalf of Azerbaijani music lovers, we extend our heartfelt gratitude to bp for supporting the publication of this book.

We would like to emphasize once again that Uzeyir bey's works composed for children, alongside his numerous large-scale compositions, deserve full attention and high appreciation. Each encounter children have with these songs will add new colours and beauty to their pure and wonderful world, and they will lovingly cherish and keep this beauty and nobility alive throughout their lives.

**Sardar Farajov**
*Director of Uzeyir Hajibeyli's House-Museum,*
*People's Artist*

"Uşaqların həm qəlbini, həm ağlını, həm də zövqünü tərbiyə edəcək dərslikləri olmalıdır. Dərsliklərə ictimai-tərbiyəvi əhəmiyyəti olan, uşaqlarda yüksək əxlaqi sifətlər və mədəniyyət aşılayan material daxil edilməlidir".

"Doğrudan da, uşaq tərbiyəsi çətindir... Tərbiyənin yolunu ancaq elm sahəsində bilmək mümkündür".

**Üzeyir Hacıbəyli**

"Children should have textbooks that nurture their hearts and minds, as well as their sense of taste. The textbooks should include content with social and educational significance that instills high moral qualities and cultural values in children."

"Indeed, raising a child is difficult… The path to proper upbringing can only be understood through science."

**Uzeyir Hajibeyli**



# Çıxdı günəş

**Söz: Mirzə Ələkbər Sabir**











Çıxdı günəş, doldu cahan nur ilə,
Cütçü sürür tarlada cüt şur ilə.

Atlar, öküzlər kotana güc vurur,
Gah yürüyür, gah yıxılır, gah durur.

Cütçü batıb qan-tərə yer şumlayır,
Şumladığı tarlasını tumlayır.

Olsa da artıq nə qədər zəhməti,
İşləməyə var o qədər qeyrəti.

Çünki bilir rahət əziyyətdədir,
Şad yaşamaq səydə, qeyrətdədir.

İndi əgərçi ona zəhmət olar,
Qışda əyali, özü rahət bular:

Cəm edəcək tarlanın hasilin,
Bəsləyəcək ailəsin, həm elin.

# Ninni

**Sözləri xalqa məxsusdur.**

𝄋 **Andante M. M.** ♩ = 76









Könlümün bir gülüsən,
O gülün bülbülüsən.
Sinəmin sünbülüsən,
Səni, yavrum, sevərəm.

Laylay dedim yatasan,
Qızıl gülə batasan.
Gül yastığın içində
Şirin yuxu tapasan.

Laylay dedim həmişə,
Karvan gedər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

# Pilotlar

**Söz: Mirmehdi Seyidzadə**









Vətənimin bayramı
Əziz gündür dünyada,
Bu bayramda sevinclə
Biz çıxırıq parada.

Uçur aeroplanlar,
İçində var pilotlar.
Göyləri gəzə-gəzə
Baxır pilotlar bizə.

Biz bayraq yelləyirik,
Pilotlara deyirik:
– Salam sizə, qoçaqlar!
Sizi sevir uşaqlar.

# Səhər-səhər yaz çağı

Söz: Abbas Səhhət

Allegro M. M. ♩ = 100









2. Arvad, kişi, oğlan, qız
Gön çarıqlı, başmaqlı,
Gedir qoruq-qaytaqsız
Gəlin, qızlar yaşmaqlı.

3. Qoyun, quzu, at, eşşək
Salmış çölə qalmaqal.
Dəvə, maya, nər, köşək,
Lökləyirlər dalbadal.

4. Kişi əlində çomaq
Sürür yüklü öküzü.
Dəvə üstə bir uşaq
Çox oxuyur bu sözü:

5. Ağ dəvə alçaq gedər,
Qolunda qolçaq gedər,
Ağ dəvənin gözləri,
Yerə dəyər dizləri.
Endi çaya yuh-yuh!
Ağca maya yuh-yuh!

# Beşik başında

**Sözləri xalqa məxsusdur.**

**Moderato M. M. ♩ = 104**









2. Evində, eşiyində,
Yat, quzum, beşiyində.
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.

3. Oxşasın dilim səni,
Böyütsün elim səni.
Meydanda at oynadan
Bir igid görüm səni.

*Afakə – boş, faydasız, hədər

# Bir quş düşdü havadan

Söz: Üzeyir Hacıbəyli

Andante M. M. ♩ = 60














Bir quş düşdü havadan,
Qondu sinəmin üstə.
Verdi salam anadan,
Ağzında, kağız üstə.

Dedim, quşum, di uç get,
Məndən ona salam et.
Oynamağa yoxdur vəqt,
Dərslərimdir çox-çox sərt.



# Bayram günü

Söz: Mirmehdi Seyidzadə
Uşaq xoru üçün işləyəni: Rəşid Şəfəq







*4-cü bənddə bu not yoxdur.









Azad ellərimin gənc nəsliyik biz,
Sevinclə doludur körpə qəlbimiz.
Biz azad bülbülük, ölkəmiz gülşən,
Bu bayram günündə gəzirik şən-şən,
gəzirik şən-şən.

Bayram sevinc verdi bu yeni nəslə,
Çalıb, oxuyuruq böyük həvəslə.
Bizim səsimizə səs verir dağlar,
Çıxır nümayişə bütün uşaqlar,
bütün uşaqlar.

Sevirik anamız Azərbaycanı,
Odur qəlbimizin hissi, heyranı.
Gündə çiçəklənir Vətən torpağı,
Səadət günəşi olub bayrağı,
olub bayrağı.

Sevincdən hamının üzü gülümsər,
Vətənin eşqidir ellərə rəhbər.
Bizi çıxarmışdır bu parlaq günə,
Belə xoşbəxt günə, belə ağ günə,
belə ağ günə!

# Şəfəq sökülürkən

𝄋 **Maestoso, tempo di marcia M. M. ♩ = 112**

**Söz: Abdulla Şaiq**











Solo:

Şəfəq sökülürkən xoruzlar banlar,
Sis dumanlı dərə, bayır, ormanlar,
Sürüsünü yayar dağa çobanlar,
Təbiətin zövqünü onlar anlar.

Xor:

Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

Solo:

Gözəl olur bu yerlərin səhəri,
Dağ başından doğar altunsaç pəri.
Çəmənlərin qırmızı don dilbəri
Şəfəqilə boyar, bəzər hər yeri.

Xor:

Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

Solo:

Dünyada vardır sicimi, çatısı,
Patavası, çuxası, həm qartısı.
Bir də qumral gözlü Fatısı,
Oxuduqca ürək deyər bayatısı.

Xor:

Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

## Mündəricat

Ön söz .......... 4
Çıxdı günəş .......... 7
Ninni .......... 10
Pilotlar .......... 12
Səhər-səhər yaz çağı .......... 14
Beşik başında .......... 16
Bir quş düşdü havadan .......... 18
Bayram günü .......... 21
Şəfəq sökülərkən .......... 24

## Contents

Foreword .......... 5
The Sun has Risen .......... 7
Lullaby .......... 10
Pilots .......... 12
Early Morning in Springtime .......... 14
At the Cradle .......... 16
A Bird Fell from the Sky .......... 18
Holiday Day .......... 21
At Dawn .......... 24

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı, Mehdi Hüseyn küç., 55, dalan 2, ev 3

Nəşriyyat redaktoru:
**Zaur Hüseynov**

Dizayner:
***Mətanət Əliqızı***

Çapa imzalanmışdır: 27.06.2025. Format: 60x84 1/8.
Həcmi: 3,5 ç.v. Sifariş: № 23. Tiraj: 500

"Zərdabi-Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
Tel.: (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru

---

The Ministry of Culture of the Republic of Azerbaijan
The Azerbaijan State Publishing House
55 Mehdi Huseyn street, apt 3, Baku

Publishing Editor:
**Zaur Huseynov**

Designer:
**Metanet Aliqizi**

Signed for print: 27.06.2025. Format: 60x84 1/8
Volume: 3,5 printer's sheets. Order No.: 23. Print run: 500 copies

Printed from ready-made positives
at the "Zardabi-Nashr" LLC Publishing and Printing House.
Phone: (050; 055; 070) 344 76 01
Email: zerdabi_em@mail.ru

9 789952 594072